**Vergi ödəyicilərinin kommersiya (vergi) sirri**

Kommersiya hüquqi şəxslərin təsisçləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatların məxfiliyi gücləndiriləcək

Milli Məclisdə «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanuna əlavə və dəyişikliklərlə bağlı qanun layihəsi hazırlanmışdır. Qanun layihəsində qeyd olunur ki, kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar aşağıdakı hallarda sorğu əsasında açıqlana bilər.

Həmin məlumatlar qanunla müəyyən edilmiş hallarda və qaydada məhkəmə, istintaq və təhqiqat orqanlarına, qanunun müəyyən etdiyi hallarda əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə, «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Qanunla müəyyən olunmuş hallarda və qaydada maliyyə monitorinqi orqanlarına verilə bilər. Bununla yanaşı, icra orqanlarına, vəkillərə, kommersiya hüquqi şəxsin digər təsisçilərinə və iştirakçılarına, barəsində dövlət reyestrindən məlumatların verilməsi tələb olunan şəxsin razılığı ilə üçüncü şəxslərə də məlumatların açıqlanmasına icazə veriləcək.
Onu da qeyd edək ki, kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla, hər bir şəxs dövlət reyestrindəki yazılarla tanış olmaq, dövlət reyestrindən çıxarışı və qeydiyyat üçün təqdim olunmuş sənədlərin surətlərini tələb etmək hüququna malikdir. Bununla bağlı «Kommersiya sirri haqqında» Qanuna da əlavə və dəyişikliklər edilməsi nəzərdə tutulmuşdur.
Yeri gəlmişkən, Vergi Məcələsinin 30-cu maddəsində də kommersiya hüquqi şəxslərin vergi sirrinin qorunması məsələləri öz əksini tapmışdır. Məcəlləyə əsasən, bu məsələdə hər bir vergi işçisinin üzərinə ayrıca məsuliyyət düşür. Vergi qanunvericiliyinə görə, vergi orqanları və onların vəzifəli şəxsləri xidməti vəzifələrini yerinə yetirərkən vergi ödəyiciləri haqqında əldə etdikləri və ya onlara etibar edilən hər hansı məlumatın məxfiliyini qorumağa borcludurlar (vergi orqanlarında işlədikləri dövrdə və ya işdən çıxdıqdan sonra). Kommersiya (vergi) sirrinin açılmasına, əsasən, vergi yoxlaması zamanı vəzifələrini yerinə yetirən vergi orqanının vəzifəli şəxsinə, cəlb edilmiş mütəxəssisə və ya ekspertə vergi ödəyicisinin bəlli olmuş kommersiya (vergi) sirrinin istifadə edilməsi və ya başqa şəxsə verilməsi aiddir.
Vergi orqanına daxil olmuş və kommersiya (vergi) sirrini təşkil edən məlumatların qorunmasının və əldə edilməsinin xüsusi rejimi vardır. Kommersiya (vergi) sirrini təşkil edən məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən siyahı üzrə vəzifəli şəxslər əldə edə bilər.
Bundan başqa, dövlət orqanları və onların vəzifəli şəxsləri kommersiya (vergi) sirrini təşkil edən məlumatları əks etdirən sənədləri həmin sənədləri onlara təqdim etmiş vergi orqanlarına qaytarmağa borcludurlar. Vergi ödəyicisinə aid məlumat digər şəxsə vergi ödəyicisinin yazılı icazəsi ilə verilə bilər.
Kommersiya (vergi) sirrini təşkil edən məlumatların itirilməsi və yaxud belə məlumatların açılması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Rəşad SADIQOV